*Aşıq Ələsgər-200*

# Qüdrətli sənətkar sənət inciləri ilə aşıq poeziyasına ucalıq gətirmişdir

**Aşıq Ələsgər xalqımızın mənəviyyatının bir hissəsinə çevrilmiş söz ustadı, Haqq Aşığıdır. Ruhunda, cismində Dədə Qorqudu, Qurbanini, Qaracaoğlunu, Yunus Əmrəni, Sarı Aşığı daşıyan qüdrətli saz, söz ustadı Aşıq Ələsgər müdrikliyin, səmimiyyətin zirvəsidir.**



Göyçə gölünün nəğməli sahillərində böyüyüb, ərsəyə çatan Dədə Ələsgər xalqımızın yaddaşında gözəllik vurğunu, həyat aşiqi, saflıq və səmimiyyət ustadı kimi əbədi həkk olunmuşdur. O, aşıq şeirinin, demək olar ki, bütün formalarına müraciət etmiş, qoşma, gəraylı, qıfılbənd, dodaqdəyməzlər yaratmış, deyişmələr iştirakçısı olmuşdur. Qüdrətli el sənətkarı minillik ənənələr axarında öz sözünü deyə bilmiş, heç kəsi təkrar etməmiş, hamının işlətdiyi adi sözlərdən insanı heyrətdə qoyacaq bir poeziya ümmanı yaratmışdır.

Aşıq Ələsgər Azərbaycan aşıq sənəti, milli aşıq poeziyası tarixində layiqli yer tutan sənətkardır. O, qeyri-adi fitri qabiliyyəti sayəsində yaratdığı müxtəlif səpkili, müxtəlif məzmunlu sənət incilərində ümumbəşəri fikirləri ilə müqəddəs sənətin zirvəsinə yüksəlmişdir. Qüdrətli el sənətkarının yaratdığı əsərlər bu gün də aşıqlarımızın repertuarında geniş yer tutur, şənlikləri, məclisləri bəzəyir.

Xalqımıza sazı, sözü ilə 80 ildən artıq ləyaqətlə xidmət edən Dədə Ələsgər yalnız qüdrətli bir şair-aşıq kimi yox, həm də xalqımızın qəlbində bir ocaq, pir, bir övliya olaraq heykəlləşmişdir.

Bu günlərdə Xəzər Rayon Mədəniyyət Evində Aşıq Ələsgərin anadan olmasının 200 illiyi ilə bağlı yubiley mərasimi keçirildi. Tədbirdə rayon ictimaiyyətinin nümayəndələri, şairlər, el aşıqları iştirak edirdilər. Yubiley mərasimini giriş sözü ilə açan şair Güllü Eldar Tomarlının çıxışından sonra söz "Dədə Ələsgər" İctimai Birliyinin sədri, Aşıq Ələsgərin nəticəsi Xətai Ələsgərliyə verildi. O, vurğuladı ki, Aşıq Ələsgər 1821-ci ildə Göyçə mahalının Ağkilsə kəndində dünyaya göz açmışdır. Onun atası Alməmməd halal zəhməti ilə dolanan, xalq arasında şair kimi tanınan bir el ağsaqqalı idi.

Dədə Ələsgər Qızılvəngli Aşıq Alının yanında beş ilə qədər şəyird olmuş, aşıq sənətinin sirlərini öyrənərək az bir müddətdə xalq arasında böyük şöhrət qazanmış, səsisorağı hər yana yayılmışdır. O, möhkəm hafizəsi, dərin zəkası və həmişə öyrənməyə cəhd göstərməsi sayəsində zəngin bilik əldə etmişdir.

Aşıq Ələsgər məclislərdə heç zaman özünü təbliğ etməz, Qurbanidən, Abbasdan, Xəstə Qasımdan, Valehdən və başqa ustadların şeirlərindən oxuyar, öz şeirlərini isə məclisdəkilərin tələbindən sonra ifa edərmiş.

Təmiz adı ilə ellər dolaşan Aşıq Ələsgər hamı tərəfindən sevilər, hər yerdə hörmətlə qarşılanardı. Şeir-sənət xridarları onunla dostluq etməyi, onu qonaq saxlamağı özlərinə şərəf sayırdılar.



Dədə Ələsgərin çox böyük sənətkar olduğunu onun sağlığında dövrünün ziyalıları, ustad aşıqları dönə-dönə etiraf etmişlər. Fars, türk və ərəb dillərində mükəmməl təhsil görmüş, klassik ədəbiyyatı və aşıq poeziyasını kamil bilən Mirzə Bəylər dostunu Şərqin böyük şairi Hafiz Şiraziyə bərabər tutmuş, onun yaradıcılığını yüksək dəyərləndirmişdir.

Aşıq Ələsgər az zaman içərisində çox məşhurlaşmış, onun şöhrəti hər tərəfə yayılmışdır. Qədim saz sənətinə yiyələnmək, bu sənətin incəliklərini öyrənmək, mahir bir aşıq olmaq məqsədilə ondan dərs alanların sayı-hesabı yoxdur. Göyçədə boya-başa yetən aşıqların böyük bir qrupu - Daşkənd kəndindən Aşıq Nəcəf, Qızılvəngdən Aşıq Mustafa və Aşıq Yusif, Çaxırlıdan Aşıq Hüseynalı, Nərimanlıdan Aşıq İsə və Aşıq Mikayıl, Zoddan Aşıq Qasım Qaraqoyunludan Aşıq Əsəd, Ağkilsədən Aşıq İman və başqaları Aşıq Ələsgərin sayəsində ad qazanmışlar.

Aşıq Ələsgərin əsərlərində məzmun gözəlliyi ilə forma gözəlliyi vəhdət təşkil edir. Ürək sözlərini özünəməxsus bir incəliklə ifadə edən el nəğməkarı Azərbaycan aşıq ədəbiyyatını bir çox orijinal qədim keyfiyyətlərlə zənginləşdirib, daha yüksək mərhələyə qaldırmışdır. O, Qafqaz elini qarışqarış gəzmiş, Gəncədə, Qarabağda, İrəvanda, Naxçıvanda, Şərurda, Dərələyəzdə, Borçalıda, Qazaxda, Şəmkirdə, Şınıxda və başqa yerlərdə saysız-hesabsız məclislər keçirmişdir.

Dədə Ələsgərin müxtəlif səpkili şeirləri xüsusilə "Ayə məndədi" rədifli təcnisi diqqəti cəlb edir.

*Bir sazım var, yox pərdəsi, nə simi,*
*Onu çalıb, kim tərpədər nə simi?!.*
*Firdovsi, Füzuli, Hafiz, Nəsimi -*
*Onlar da yazdığı, ayə, məndədi.*

Aşığın şeirləri həm forma, həm məzmun, həm də bədii cəhətdən elə böyük sənətkarlıq nümunələridir ki, istər öz sağlığında, istərsə də vəfatından sonra bir çox aşıqlar və el şairləri onun ayrı-ayrı qoşma, təcnis və digər şəkilli şeirlərinə onlarla bənzətmələr demiş, işlətdiyi bədii təsvir və ifadə vasitələrindən istifadə etmişlər.

Dədə Ələsgərə həsr olunmuş tədbirdə Buzovna məscidinin axundu Hacı Sultanağa, Pərvin Qasımova, filologiya üzrə fəlsəfə doktoru Xanım Mustafayeva və başqaları çıxış etdilər.



Yubiley mərasimində 24 nömrəli Binə musiqi məktəbinin "Qarabağ" aşıqlar ansamblının üzvləri, Sumqayıt musiqi məktəbinin "Cəngi" aşıqlar qrupu rəngarəng proqramla çıxış etdilər.

**Qədir ASLAN,**
**"Respublika".**